Ədalət.-2023.-20 okty.,№40.-S.3.

*Məzahir ƏHMƏDOĞLU*



# O İLLƏRİN... ÖDÜLÜ

## *Dahi şairin 90 illik yubileyinə*

**İnsan həyatının elə anları olur ki, uzun illər ötüb keçsə belə unudulmur, yaddaşında həmişə işıqlı, əlvan xatirələrlə canlanır. Təbii ki, söhbət sevinc doğuran anlardan, psixolojinin klassik "unudulmazlıq" aksidensiyasından gedir. Baxmayaraq, bu cür yanaşmanın özündə də təsadüfülik, keçicilik hiss etmək mümkündür.**

**Ancaq fərdin həyat tərzinin və dünya görüşünün səviyyəsindən asılı olaraq yaddaşında əbədiləşən bəzi "qızıl fondlar" çox vaxt tərəddüdlü sxolastik məqamlardan fərqli yerdə dayanır və ayrıca qavranılır. Hamı üçün söylənilə bilinməyən əhvalatlar kimi...**

**Böyük şairimiz Məmməd Arazın yubiley ilində belə nadir əhvalatlardan birini indi mən tez-tez xatırlayıram, o qüruru elə o illərdəki kimi yaşayıram.**

**O vaxtlar mən ilk cəhdlərimdə universitetə qəbul ola bilməsəm də, komsomol işində çalışır, eyni zamanda tanınan-tanınmayan işıqlı tay-tuşlarımla, vətənsevər gənclərlə, müstəqil və şimalsız-cənubsuz vahid Azərbaycan uğrunda canından keçməyə hazır olan insanlarla dostluq edirdim. Bu, sonralar tələbəlik illərimdə də beləcə yaşanırdı.**



**...Və mənim poeziya adlı mələyin ovsununa düşməyim də bir ayrı əhvalat idi. Yazdığım şeirləri qəbul edirdilər də. 17-20 yaşlarında 20-22 şeir yazmışdım və bu şeirlərdən biri qəzetdə dərc olunmuşdu, biri də radioda oxunmuşdu, vəssəlam.**

**O vaxtlar "bizim dəstə"nin iki böyük şairi vardı - Əli Kərim və Məmməd İbrahim, yəni ki, Məmməd Araz. Biz Əli Kərimi doyunca görüb dinləyə bilmədik...**

**Hələ 30-35 yaşlarından canlı klassik adlandırdığımız Məmməd İbrahimi isə qəzetlərdə, müxtəlif görüşlərdə, tədbirlərdə, Baksovetdə, dəniz kənarında... görə bilirdik. Hətta yaxınlaşıb salam da verirdik. Biz onun şeirlərini əzbər bilirdik, bütün görüşlərimizdə mütləq həmin şeirlərdən nümunələr söyləyirdik, biz ona həm böyük bir şair kimi, həm də böyük bir insan kimi pərəstiş edirdik. Biz onu elə ikinci kitabından - "Ömür karvanı"ndan sonra bütöv bir Azərbaycan kimi görürdük. Elə bilirdik bu şeirlərin, bu kitabların, bu böyük şairin adı Məmməd Araz deyil, Azərbaycandır...**

**Gizlin ağrılarımız, düşüncələrimiz sanki mistik bir əhvalla böyük şairin sinirlərindən keçirmiş. Çünki elə o aylardan, bəlkə də o günlərdən Məmməd İbrahim daha Məmməd Araz olaraq sevilirdi. Bu hadisənin isə gerçəkdən çox böyük bir mənası vardı.**

**Mənim taleyimdə Məmməd Arazla bağlı çox xoşbəxt bir məqam olub. Yox, siz elə düşünməyin ki, mən bu yazıda böyük şairin poeziyasından, hansısa silsilə şeirlərindən və ya yazdığım şeirlərimə münasibətindən söhbət açacağam. Bu ayrı mövzudur, qismət olarsa**

**Ancaq... Bəlkə də heç kəsə qismət olmayan orijinal bir mükafatım da var. Rəsmi olmayan bir təşkilat 20 yaşım tamam olanda məni "Ömür karvanı" kitabı ilə təbrik edib mükafatlandırmışdı. Şeir yazdığıma görə deyil... Vətənin xoş sabahları üçün yaşayan və düşünən Azərbaycan vətəndaşı olduğuma görə!**

**Bu, həm də simvolik bir məsələ idi, mənə görə qeyri adi bir hadisə idi.**

***P.S.*** ***Bu kitabı, öz-özlüyümdə "Məmməd Araz ordeni" adlandırdığım bu mükafatı mənə yığcam bir məclisdə o vaxt universitetin tarix fakültəsini yenicə bitirmiş Fəzail Ağamalıyev təqdim etmişdi. Təbii ki, böyük əksəriyyətin razılığı və təklifi ilə...***

***... Və mən bu kitabı heç şəxsi kitabxanama da yerləşdirməmişəm. Ona Məmməd Araz bölməsində də rast gəlmək mümkün deyil, orada o adda başqa bir nüxsədir. "Məmməd Araz ordeni" adlandırdığım həmin o kitab isə indiyə kimi aldığım xüsusi hədiyyələr və mükafatlar üçün ayırdığım guşəni bəzəyir.***